# Analitik fəlsəfə nədir?

written by Anar Jafarov Anar Cəfərov

Analitik fəlsəfə XIX əsrin sonu XX əsrin əvvəllərində Avropada meydana çıxmış və müasir dövrün bir çox mühüm fəlsəfi cərəyan və məktəblərini özündə ehtiva edən geniş bir fəlsəfi istiqamətdir. Əgər biz XX əsrin fəlsəfə tarixinə baxsaq, onda görərik ki, bu dövrün fəlsəfi cərəyanları haqqında yazanlar əsasən iki geniş fəlsəfi istiqaməti bir-birindən fərqləndirirlər: analitik fəlsəfə və kontinental fəlsəfə. *Analitik* fəlsəfəyə məntiqi atomizm, məntiqi pozitivizm, Oksford dil fəlsəfəsi kimi cərəyanlar, *kontinental* fəlsəfəyə isə fenomenologiya, ekzistensializm, hermenevtika, postmodernizm[1] və s. kimi cərəyanlar aid edilir. Bu fəlsəfi cərəyanların hər biri özündə bir neçə fəlsəfi məktəbi əhatə edir ki, onların da adı XX əsr fəlsəfə tarixinə yaxşı məlum olan məşhur filosofların fəaliyyəti ilə bağlıdır. Təbii ki, bir məqalədə bu filosofların yaradıcılığı və onların adları ilə bağlı olan məktəb və cərəyanlar barədə ətraflı məlumat vermək sadəcə mümkünsüzdür. Və mənim bu məqalədəki məqsədim həmin filosoflar və onların adları ilə bağlı olan məktəb və cərəyanları ayrı-ayrılıqda nəzərdən keçirmək də deyil. Məqalədə əsas məqsəd analitik fəlsəfənin mühüm xüsusiyyətlərindən bəhs etməkdir. Bundan əlavə, məqalənin son hissəsində – analitik fəlsəfənin mühüm xüsusiyyətləri göstərildikdən sonra – onun azərbaycandilli fəlsəfəyə nə verə biləcəyi ilə bağlı suala cavab verməyə çalışmışam.

***Yaranışına bağlı ən əsas adlar***

Fəlsəfə tarixçiləri müxtəlif filosofları analitik fəlsəfənin yaradıcıları kimi göstərsələr də, onların arasında dörd filosofun adı xüsusi vurğulanır: Qotlob Freqe [Gottlob Frege] (1848-1925), Bertran Rassel [Bertrand Russell] (1872-1970), Corc Eduard Mur [George Edward Moore] (1873-1958) və Ludviq Vitqenştayn [Ludwig Wittgenstein] (1889-1951). Bu dörd filosof içərisində analitik fəlsəfənin yaradıcısı kimi hansının daha

çox paya malik olduğunu müəyyən etmək çətindir. Məsələyə anqlosentrik yanaşanlar bəzən sadəcə belə deyirlər: “analitik fəlsəfə ingilisdilli fəlsəfədir”. Buradan isə belə nəticə çıxır ki, Rassel və Mur (britaniyalı filosoflar olduqlarından) analitik fəlsəfənin yaranışında da əsas paya malik olublar (digər iki filosof – Freqe və Vitqenştayn – isə almandillidirlər). Lakin çətin ki analitik fəlsəfənin yalnız ingilisdilli fəlsəfə kimi qələmə verilməsi məsələ üzərində ciddi düşünmənin məhsulu olsun. Xüsusilə, Freqenin analitik fəlsəfənin yaranışındakı rolunu nəzərə aldıqdan sonra bu fikrin üzərindən tez keçməli oluruq. (Digər tərəfdən, çağdaş dövrdə ingilis dilinin fəlsəfədə də aparıcı dil olmasına baxmayaraq, analitik fəlsəfənin dünyanın müxtəlif ölkələrinə yayılması analitik filosofların tək ingiliscə deyil, daha fərqli dillərdə əsərlər yazmasına bir səbəb olmuşdur). Bununla belə, burada analitik fəlsəfənin yaranışında rol oynayan ingilisdilli filosofların üzərində dayanmağın başqa bir mühüm əhəmiyyəti var. Analitik filosofların əksəriyyəti realistdirlər və dilin fəlsəfi sualları üzərində fokuslanmağa tarixən çox üstünlük veriblər. Bu xüsusiyyətlər – *realist olma* və *dil fəlsəfəsi*nin önə çəkilməsi – xeyli dərəcədə analitik fəlsəfənin ingilisdilli britaniyalı qurucuları Mur və Rasseldən miras qalmışdır. Ən azı bu səbəbdən analitik fəlsəfənin necə yarandığını izləmək üçün onların təşəkküldəki roluna nəzər salmaq faydalıdır. (Məqalədə yeri gəldikcə digər filosofların, xüsusilə Freqenin müvafiq fikirlərinə də toxunulacaqdır.)

### ***Mur və Rassel Britaniya idealizminə qarşı***

Mur və Rassel gənc filosof olaraq yetkinləşdikləri dövrdə Britaniyada Hegel idealizmi hökm sürürdü. XIX əsrin sonları Britaniyanın akademik dairələrində qabaqcıl filosofların əksəriyyəti (F. H. Bredli [Bradley], B. Bozanket [Bosanquet], J. M. E. Maktaqqart [McTaggart] və s.) idealist filosoflar hesab olunurdular. Britaniya idealistləri hesab edirdilər ki, dünya vahid və bölünməz qeyri-maddi Bütövdən (İdeyadan) ibarətdir və dünyanın bizə məkan və zamanca ayrı-ayrılıqda

mövcud olan maddi obyektlərin məcmusu kimi görünməsi reallığa uyğun deyil. Əslində Britaniya idealistləri gündəlik həyatımızda rastlaşdığımız şeylərin (stol, ağac, heyvanlar və s.) mövcudluğunu inkar etmirdilər, sadəcə onların bizə göründükləri kimi deyil, fərqli olduqlarını iddia edirdilər. Bu hegelçi idealistlərə görə, hər bir ayrılıqda götürülmüş şeyin mövcudluğunun mahiyyəti bütün başqa şeylərə və Bütövə münasibətdədir. Onların fikrincə, şeylər özü-özlüyündə mövcud deyil; özü-özlüyündə mövcud olan yalnız Bütövdür. Həmçinin, ayrı-ayrılıqda götürülmüş şeylər haqqındakı fikir və cümlələr də özü-özlüyündə doğru ola bilməzlər, çünki bir şeyi ayırılıqda götürüb onun haqqında hansısa fikrə gəlmək və ya nəsə demək, həmin şey haqqındakı həqiqətin böyük bir hissəsini (yəni, onun başqa hər şeyə münasibətini) inkar etmək olardı (bax Preston).

Gəlin, hegelçi idealistlərin nə demək istədiyini sadə bir misalla başa düşməyə çalışaq. Təsəvvür edin ki, yalnız Bütövün (Mütləq İdeyanın) real olduğuna inanan bir idealistin qarşısında yaşıl ot vardır. Əgər o, otun mahiyyəti barədə düşünməli olsa (başqa sözlə, sual etsə ki, “Görəsən, bu, əslində nədir?”), onda belə bir fikir irəli sürəcəkdir ki, bunun (yəni, bizim hamımızın “ot” dediyi şeyin) mahiyyəti rəngi də daxil olmaqla, bizə verildiyi kimi deyil, Bütövə münasibətdə necədirsə, elədir. Başqa sözlə, idealist qarşısındakının həqiqətən ot olduğuna və onun rənginin (bizə verilən kimi) yaşıl olmasına şübhə edəcəkdir.

Mur və Rassel öz yazılarında bu cür və buna oxşar idealist baxışlara qarşı çıxırdılar. Rassel bu barədə yazırdı: “1898-ci ilin sonlarına doğru idi ki, Mur və mən həm Kanta, həm də Hegelə qarşı üsyan etdik” (Russell 1959, 54). O, daha sonra qeyd edir: “Bunu əslində böyük bir qurtuluş kimi hiss etdim; sanki isti bir evdən küləyin hər tərəfdən sovurduğu ön bir əraziyə qaçmışdım (…) Sadəlövh realist oldum və otun həqiqətən yaşıl olması fikrinə sevindim” (Russell 1959, 61).

Beləliklə, Rassel Mur ilə birlikdə Britaniya idealizminin

əleyhinə olaraq dünyaya realist bir baxış ortaya qoyurdular. Onlar hesab edirdilər ki, dünya vahid və bölünməz qeyri-maddi Bütövdən və ya Mütləqdən deyil, məkan və zamanca ayrı-ayrılıqda mövcud olan maddi obyektlərdən (yaxud faktlardan) ibarətdir. Həmçinin, hər bir ayrılıqda götürülmüş şeyin mahiyyətini bütün başqa şeylərə və Bütövə münasibətdə deyil, şeyin özündə axtarmaq lazımdır. Başqa sözlə desək, Rassel və Mur belə hesab edirdilər ki, şeylər *özü-özlüyündə* mövcuddurlar və (buradan belə çıxır ki) ayrı-ayrılıqda götürülmüş şeylər haqqındakı fikir və cümlələr də özü-özlüyündə doğru ola bilər.

Mur gündəlik həyatla bağlı “Bu, əldir”, “Dünya mövcuddur”, “Mən bədənə malikəm” kimi adi (hamıya bəlli) fikirlərin yanlışlığını iddia etməyi xüsusilə təhlükəli hesab edirdi. O qeyd edirdi ki, əgər kimsə iddia edirsə ki, bu cür realist fikirlər yanlışdır, onda o, gündəlik (adi) dilin ifadə etdiyi anlayışları inkar etmiş olur, çünki dünyaya realist baxış adi dildəki sözlərin mənalarına pərçimlənib (bax Mur 1925). Məsələn, “Bu, əldir” cümləsi mahiyyəti hansısa Bütövə münasibətdə olan nəsnəni deyil, əti-sümüyü olan, tanıdığımız konkret bir nəsnəni bildirir. Əgər kimsə bu cümlənin və ya onun ifadə etdiyi fikrin gerçək olan bir nəsnəni – yəni, bizim başa düşdüyümüz mənada *əli* – deyil, hansısa idealist bir anlamda başa düşüləcək bir nəsnəni bildirdiyini iddia edirsə, deməli o, “Bu, əldir” cümləsinin ifadə etdiyi adi (hamıya bəlli) mənasını inkar etmiş olur. Mura görə, bizim dünyanı anlamaq imkanlarımız çox vaxt bu cür suala verilməyən və öz-özünə aydın olan adi fikirlər tərəfindən müəyyən edilir və həmin fikirləri şübhə altına almaq fəlsəfi refleksiya üçün zəruri olan başlanğıc nöqtəsini yerindən oynatmaqdır. Belə olan halda isə ortaya qoyulacaq fəlsəfə də əsaslarsız olacaqdır. Bu səbəbdən Mur düşünürdü ki, skeptiklər və idealistlər adi gündəlik fikirləri sual altına almaqda səhv edirlər.

***Konseptual analiz***

Mur və Rasselin hegelçi idealistləri tənqid edərək yeni bir fəlsəfə ortaya qoymalarını (ən azı İngiltərədə) analitik fəlsəfənin başlanğıcı hesab etmək olar. Bir çoxları belə düşünür ki, Murun "analiz" terminini adi (hamıya bəlli) fikirlərlə əlaqəli işlətməsi elə "analitik fəlsəfə" adının mənbəyidir (bax Preston). Mur həqiqətən də idealistlərdən və skeptiklərdən fərqli olaraq belə düşünürdü ki, fəlsəfənin vəzifəsi adi realist fikirlərin həqiqiliyini müzakirə etmək deyil, həmin fikirləri düzgün *analiz* etməkdir.

Yaxşı, bəs *analiz* nədir? Əslində, analiz fəlsəfədə və elmdə qədim vaxtlardan işlədilən ümumi bir metoddur. Müxtəlif filosoflar və ya elm adamları müxtəlif cür analiz (təhlil) metodları vermişlər. Ən ümumi şəkildə ifadə etsək, *analiz* dedikdə, verilmiş hər hansı bir nəsnəni (şeyi) onu təşkil edən daha fundamental tərkib hissələrə bölmək və sözügedən nəsnəni həmin hissələrdən çıxış edərək izah etmək nəzərdə tutulur.[2] Təbii ki, analizə verilə bilən nəsnələr müxtəlif təbəitli ola bilər. Məsələn, fizik və kimyaçı hansısa maddənin analizindən, dilçi isə cümlələrin və ya söz birləşmələrinin analizindən (təhlilindən) danışa bilər.

Bəs analitik filosof hansı nəsnələrin analizi ilə məşğuldur? Analitik filosofun analiz məqsədi üçün üzərində dayandığı nəsnə *konseptlər* (anlayışlar) və ya (zəruri olaraq konseptlərdən təşkil olunan) *fikirlərdir*. Bir çox analitik filosoflar hesab edirdilər ki, filosofun əsas vəzifələrindən biri mürəkkəb konseptləri sadə konseptlər vasitəsi ilə analiz etməkdir.[3] Fəlsəfi ədəbiyyatda adına tez-tez *konseptual analiz* kimi rast gələnən bu metodun məqsədi konseptin (anlayışın) tətbiq olunduğu nəsnənin gerçəkləşməsi üçün zəruri və kafi olan şərtləri tapmaqdır.[4] Tutaq ki, hər hansı bir A konseptinin tətbiq olunduğu nəsnənin gerçəkləşməsi üçün zəruri olan şərtlər B və C-dir. Bu o, deməkdir ki, B və C şərtləri gerçəkləşməyincə A-nın tətbiq olunduğu nəsnə gerçəkləşməyəcəkdir. B və C şərtləri ayrı-ayrılıqda A-nın tətbiq olunduğu nəsnənin gerçəkləşməsi üçün zəruri şərt olduqları halda hər ikisi birlikdə onun kafi şərtidir.

Gəlin dediklərimizi misalla izah etməyə çalışaq. *Subay* konseptinin analizi *insan* və *evlənməmiş* konseptləri vasitəsi ilə verilir.[5] Bu, o deməkdir ki, *subay* konseptinin tətbiq olunduğu nəsnənin (subaylığın) gerçəkləşməsi üçün zəruri olan şərtlər *insan olmaq* və *evlənməmiş olmaq*dır. Məsələn, aydındır ki, *subay* anlayışı Tuzikə (itə) tətbiq edilə bilməz, çünki Tuzik insan olmadığından buradakı ilkin zəruri şərti (insan olmağı) ödəmir. Və ya bu anlayış hər hansı bir evlənmiş insana da tətbiq edilə bilməz, çünki bu zaman ikinci zəruri şərt (*evlənməmiş olmaq*) ödənmir. *Subay* anlayışının düzgün tətbiq olunması üçün gərək hər iki zəruri şərt ödənsin. Hər iki zəruri şərt birlikdə anlayışın düzgün tətbiq edilməsi üçün kafi şərti təşkil edir. *İnsan olmaq* və *evlənməmiş olmaq* (yəni iki zəruri şərt birlikdə) *subay* konseptinin tətbiq olunduğu nəsnənin  gerçəkləşməsi üçün kafi şərtdir. Əgər həmin kafi şərt gerçəkləşibsə, onda subaylıq da gerçəkləşməlidir.

***Məntiq və analiz***

Analitik fəlsəfənin əsas metodunu oxucuya təkcə konseptual analiz kimi təqdim etmək düzgün olmazdı. Freqenin ortaya qoymuş olduğu və Rasselin sonradan daha da inkişaf etdirdiyi yeni məntiqin – *kvantorlar məntiqinin* – fikrin analizinə tətbiqi də analitik fəlsəfədə geniş yayılmışdır. (*Kvantor* verilmiş hər hansı bir qrupun (insanlar, heyvanlar, stollar, və s.) kəmiyyətini ifadə edən termindir. Məntiqdəki *kvantor* anlayışı təbii dildə “bütün”, “istənilən”, “bir sıra”, “bəzi” və s. bu kimi kəmiyyət əlaməti bildirən sözlərlə ifadə olunur.) Freqe və Rassel belə hesab edirdilər ki, analizdə kvantorlar məntiqini alət kimi sınaqdan keçirməklə fikrin – hansı ki, zəruri olaraq konseptlərdən təşkil olunur – məntiqi strukturunu aşkar göstərmək olar.

Kvantorlar məntiqini verərkən Freqenin əsas addımı ondan ibarət idi ki, o, ənənəvi Aristotel məntiqindən bizə yaxşı məlum olan subyekt-predikat formasındakı analizi deyil, riyaziyyatdan əxz etdiyi funksiya-arqument analizinə üstünlük verirdi. Aristotel məntiqinə görə, məsələn, “Sokrat insandır”

cümləsində *Sokrat* subyekt, *insan* isə predikatdır. (Məntiqdə predikat subyektə hər hansı bir əlaməti (xüsusiyyəti) aid edir. Bizim misalda subyektə *insanlıq* əlaməti aid edilmişdir.) Freqe isə burada “*Sokrat*”ı arqument, “___ *insandır*”ı funksiya kimi götürürdü. Freqeyə görə, necə ki (riyaziyyatdan bizə məlum olduğu kimi) “y=2x” ifadəsi funksiya bildirir, “___insandır” predikatı da burada bir funksiyanı işarələyir. Riyaziyyatdan məlumdur ki, biz y=2x funksiyasında x-ə, yəni arqument yerində olan dəyişənə müxtəlif qiymətlər verməklə, funksiyanın qiymətini ala bilərik. Eləcə də “___*insandır*” funksiyasında “___” boşluğunun yerinə müxtəlif arqumentləri daxil etmək olar. Məsələn, əgər “___*insandır*” funksiyasına Sokratı arqument olaraq daxil etsək, onda funksiyanın *doğru* qiymətini almış olarıq. Yox, əgər Tuziki (bir iti) daxil etsək, onda *yanlış* qiymətini alarıq.[6]

Freqe məntiqinin digər (bəlkə də ən) mühüm xüsusiyyəti ondan ibarətdir ki, o, kvantorları da analizə cəlb edir. Məsələn,

*(1) Bütün* insanlar canlıdırlar.

*(2) Bəzi* heyvanlar uzunömürlüdürlər.

cümlələrində kvantor ifadələrdən istifadə olunmuşdur. Freqe məntiqinin izahedici gücü və Aristotel məntiqi ilə müqayisədə daha yararlı olması da bu tip cümlələri və ya onların ifadə etdikləri fikirləri analiz etdikdə ortaya çıxır. Aristotelə və digər ənənəvi məntiq tərəfdarlarına görə, (1) və (2), “Sokrat insandır” cümləsində olduğu kimi, subyekt və predikatdan ibarətdir və daha qısa formada bu cür ifadə oluna bilər:

(1a) Bütün İ-lər C-dir.

(2a) Bəzi H-lər U-dur.

Freqe isə belə hesab edirdi ki, kvantorların iştirakı ilə qurulan fikirləri analiz etmək üçün onları subyekt və predikat hissələrinə ayırmaq məntiqi strukturu açmır. Çünki ənənəvi subyekt-predikat analizi (1) və (2)-yə oxşar və kvantorlar

vasitəsi ilə verilən daha mürəkkəb quruluşa malik fikirləri düzgün analiz edə bilmir. Freqeyə görə, (1) əslində aşağıdakı kimi analiz edilməlidir:

**(1f) ∀x (İx → Cx)**

"∀" işarəsi burada təbii dildə "bütün" və ya "hər bir" sözləri ilə ifadə olunan universallıq kvantorunu, "İ" *insan olma*, "C" *canlı olma* əlamətini, "→" kondisionallığı (şərt əlaqəsini) bildirir. "x" isə dəyişəndir, yəni x-in yerinə istənilən insanı qoymaq olar. (1f)-in oxunuşu bu cürdür: *Bütün x-lər üçün, əgər x insandırsa, onda x canlıdır*.

(2)-nin məntiqi analizi isə analitik filosoflara görə belə ifadə olunur:

**(2f) ∃x (Hx & Ux)**

"∃" işarəsi burada "bəzi" kvantorunu, "H" *heyvan olma* əlamətini, "U" *uzunömürlü olma* əlamətini, "&" konyuksiyanı (məntiqdəki birləşdirici *və* bağlayıcısını) bildirir. "x" isə, yenə də dəyişəndir, yəni x-in yerinə istənilən heyvanı qoymaq olar. (2f)-in oxunuşu bu cürdür: *Bəzi x-lər üçün, x heyvandır və x uzunömürlüdür*.

(1f) və (2f) onu göstərir ki, (1) və (2) cümlələrinin məntiqi strukturu bir-birindən fərqlidir. (1)-də ifadə olunan fikirlər arasındakı məntiqi əlaqə kondisionallıq olduğu halda, (2)-də ifadə olunan əlaqə konyuktivliyə aiddir. Freqe və Rasselin kvantor məntiqi bu əlaqəni aydın göstərdiyi halda, ənənəvi subyekt-predikat analizi bunu ifadə edə bilmir.

Kvantor məntiqinin fikrin analizinə tətbiq edilməsi filosofları narahat edən bir sıra mühüm problemlərin həllində də öz köməkliyini göstərir. Məsələn, filosofları ötən əsrin əvvəllərində düşündürən problemlərdən biri doğru olan neqativ ekzistensial fikirlərlə bağlı idi. Gəlin bu problemə bir nümunə əsasında nəzər salaq.

*(3) Yerin ikinci peyki mövcud deyil.*

cümləsi neqativ ekzistensial fikri ifadə edir. Yəni, cümlə inkardadır və ilk baxışdan subyektin *mövcudluq* əlamətinə (və ya xüsusiyyətinə) malik olmadığını bildirir. Eyni zamanda cümlə (və ya müvafiq fikir) doğrudur – yəni, Yerin ikinci peyki həqiqətən mövcud deyil. (3) və digər doğru neqativ ekzistensial cümlələrlə bağlı problem aşağıdakı kimidir.[7] "Yerin ikinci peyki" sinqular termindir. Bütün sinqular terminlər (sözlər) kimi onun da vəzifəsi *bir* obyekti bildirməkdir. Ancaq Yerin ikinci peyki olmadığına görə "Yerin ikinci peyki" ifadəsi gerçəklikdə heç nəyi bildirmir – yəni, bu terminin bildirimi yoxdur. Başqa sözlə, gerçəklikdə olan heç bir şey "Yerin ikinci peyki" termininə uyğun gəlmir. Bildirimi olmayan termin və sözlərin iştirak etdiyi cümlələr isə doğru ola bilməzlər. Məsələn, "Yerin ikinci peyki onun ətrafında fırlanır" cümləsi doğru deyil, çünki "Yerin ikinci peyki" ifadəsinin bildirimi yoxdur. Halbuki, (3) tərkibində "Yerin ikinci peyki" termini olmasına baxmayaraq, yenə də doğrudur. Problem budur ki, əgər "Yerin ikinci peyki" sinqular termindirsə və onun bildirimi yoxdursa, onda necə olur ki, (3) doğrudur?

Freqe və Rassel belə hesab edirdilər ki, bu problemin mənbəyi ənənəvi subyekt-predikat analizindədir. Çünki əgər biz (3)-ün subyekt və predikatdan ibarət olduğunu düşünürüksə, onda həm də belə qərara gəlmiş oluruq ki, subyekt yerində olan termin ("Yerin ikinci peyki") nəyisə bildirməlidir ki, biz onun müəyyən bir əlamətə malik olub-olmadığını doğru olaraq deyə bilək. "Yerin ikinci peyki" isə heç nəyi bildirmədiyindən belə bir problem ortaya çıxmış olur. Analitik fəlsəfənin qurucularına görə isə kvantor məntiqinin köməkliyi ilə bu problemin həllini vermək olar. Onların fikrincə, bu cür problemlər ona görə meydana çıxır ki, biz subyekt-predikat analizinə söykənərək, "___ mövcuddur" (və ya "___ mövcud deyil") predikatını obyektlərin mövcudluq əlamətinə malik olub-olmadığını bildirmək üçün istifadə edirik. Əslində isə ekzistensial cümlələrdə "___ mövcuddur" predikatı sinqular

terminin bildirdiyi obyektə heç də hər hansısa bir əlaməti yazmır, yalnız kvantoru bildirir. Kvantor məntiqinə görə (3)-ün məntiqi strukturu aşağıdakı kimi yazılmalıdır.

**(3a)** $\neg \exists xPx$

("¬" məntiqdə inkar simvolu, "P" isə burada "Yerin ikinci peyki" ifadəsi üçün daxil etdiyimiz şərti simvoldur.) Bu ifadənın oxunuşu belədir: *elə bir x yoxdur ki, x Yerin ikinci peyki olsun*. Başqa sözlə desək, (3) əslində Yerin ikinci peykinə, yəni, hər hansı bir şeyə *mövcud olmama* əlamətini yazmır, *Yerin ikinci peyki* anlayışının örnəkləşmədiyini ifadə edir. Yəni, *Yerin ikinci peyki* anlayışı ola bilsə də (biz belə bir anlayışdan istifadə edə bilsək də), həmin anlayış gerçəklikdə heç bir obyektə tətbiq edilmir. Əslində (3) Yerin ikinci peyki (şeyin özü) haqqında deyil, *Yerin ikinci peyki* **anlayışı** haqqında bir cümlədir. Frege belə hesab edirdi ki, mövcudluq yalnız *birinci* səviyyə anlayışlara (konseptlərə) tətbiq olunan *ikinci* səviyyə anlayışdır. İkinci səviyyə anlayışlar isə birinci səviyyə anlayışlardan fərqli olaraq obyektlərə (stol, kitab, ağac və s.) deyil, anlayışlara (*stol* anlayışı, *kitab* anlayışı, *ağac* anlayışı və s.) tətbiq olunur.

Beləliklə, kvantor məntiqinin köməkliyi ilə həm də aydın olur ki, "___mövcuddur" və ya "___ mövcud deyil" tipli predikatlarla qurulan cümlələrin məntiqi strukturu "___peykdir", "___yüngüldür", "___ qırmızıdır" və s. tipli predikatlarla qurulan cümlələrin məntiqi strukturundan fərqlidir.

## *Dil və analitik fəlsəfə*

Yuxarıda qeyd etmişdik ki, analitik filosofların əksəriyyəti dilin fəlsəfi təhlilinə ciddi əhəmiyyət verirlər. Onlar arasında dili fəlsəfi baxımdan öyrənməyə və linqvistik fəlsəfəyə maraq o qədər güclüdür ki, bir çoxları bəzən elə düşünürlər ki, analitik fəlsəfə ilə məşğul olmaq elə dil fəlsəfəsi ilə məşğul olmaq deməkdir.[8] Aşağıda bu fikrin

kifayət qədər əhatəedici olmadığına nəzər salacam. Hələlik isə onu qeyd edim ki, dilin fəlsəfi problemlərinin və linqvistik fəlsəfənin hədsiz aktuallığı daha çox analitik fəlsəfənin yaranışından 1960-70-ci illərə qədərki dövrü əhatə edir. Sonrakı mərhələdə isə analitik filosoflar arasında şüurun fəlsəfi problemlərinə, metafizik suallara və s. maraq güclənmişdir. Ancaq istənilən halda, dilin mərkəzdə qalması analitik fəlsəfə tarixində uzun bir dövrü əhatə edir və bunun nəyə görə belə olması maraq doğurmaya bilməz.

Maykl Damit [Michael Dummett] analitik fəlsəfədə dilin əhəmiyyətini qeyd edərək bildirirdi ki, analitik fəlsəfəni digər fəlsəfi məktəblərdən fərqləndirən əsas cəhət ondan ibarətdir ki, analitik filosofa görə *fikrin fəlsəfi izahı əhatəedici şəkildə yalnız dilin fəlsəfi izahı vasitəsi ilə əldə edilə bilər* (bax Dummett 1993, 5). Əgər biz analitik fəlsəfənin tarixinə, xüsusilə onun ilk inkişaf mərhələlərinə nəzər salsaq, Damitin bu fikrinin doğru olduğu qənaətinə gəlmiş olarıq. Freqe, Rassel, Mur, Vitqenştayn, Karnap [Carnap], Kvayn [Quine] və başqaları nə qədər bir-birindən fərqli analiz metodları təklif etsələr də, fikrin fəlsəfi təhlilində dili həmişə önə çəkmişlər. Fikrimcə, ən azı bu səbəbdən Damitin müvafiq ideyası üzərində dayanmağa ehtiyac vardır.

Analitik filosofların *fikrin* fəlsəfi izahını nəyə görə *dilin* fəlsəfi izahı vasitəsi ilə vermələrinin səbəbini anlamaq üçün birinci növbədə “Fikir nədir?” sualına cavab verməli olacağıq. Çünki bu filosofların bir çoxunun məqsədi əslində fikrin fəlsəfi təhlili olmuşdur. “Fikir” sözünün hansı mənanı ifadə etdiyi adi danışıq dilindən bizə məlum olsa da, onun fəlsəfi termin kimi nəzərə alınması zəruri olan bir sıra xüsusiyyətləri var. Bu termin (ingiliscə “thought”, almanca “Gedanke”) fəlsəfədə tez-tez işlənən və mühüm terminlərdəndir. Analitik filosofların bir çoxu *fikir* dedikdə, anlayışlardan təşkil olunmuş və doğruluq dəyərinə malik abstrakt nəsnələri nəzərdə tuturlar. *Bu gün hava günəşlidir*, *Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il 28 mayda elan olunmuşdur*, *Suyun*

*molekulyar tərkibi $H_2O$-dur*, *Qonşularımız tez-tez dalaşırlar*, *Üçbaşlı əjdaha mövcud deyil* və s. – bütün bunlar müxtəlif məzmunlu fikirlərdir. Hər bir insan qeyri-müəyyən dərəcədə çox sayda bu cür (elmi və ya qeyri-elmi, fərqi yoxdur) fikrə malikdir. Məzmunca nə qədər müxtəlif olsalar da, yuxarıdakı misalların hamısı fikrə aiddir, ona görə ki: 1) anlayışlardan (konseptlərdən) təşkil olunublar; 2) doğru və ya yanlışdırlar. Məsələn, *Suyun molekulyar tərkibi $H_2O$-dur* fikri 1) üç anlayışdan – *su*, *molekulyar tərkib* və *$H_2O$* anlayışlarından – təşkil olunmuşdur və 2) doğrudur – yəni, suyun molekulyar tərkibi həqiqətən də $H_2O$-dur. (Freqe fikrin üçüncü xüsusiyyəti kimi onun ideal-obyektiv səciyyəli olmasını göstərirdi. İdeal-obyektiv səciyyə dedikdə, o, fikrin subyektiv səciyyə daşımadığına eyham vururdu. Yəni, Freqe hesab edirdi ki, fikirlər duyğu və hisslərimizdən fərqli olaraq bizim şüurumuzdan kənarda ideal (Platonik) bir dünyada mövcuddur. Freqedən sonra gələn analitik filosofların böyük əksəriyyəti fikrin bu cür idealist xarakteristikasını qəbul etməsələr də, bir çoxları fikirlərin obyektiv olmasını qəbul edirlər. Fikir o mənada obyektivdir ki, o, duyğu və hisslərdən fərqli olaraq, bir çox subyekt tərəfindən bölüşülə bilir. Məsələn, bir subyekt tərəfindən yaşanılan konkret ağrının özü başqa bir subyekt tərəfindən yaşanıla bilməz. Əksinə, eyni bir fikrin isə çoxsaylı subyektlər tərəfindən bölüşülməsi mümkündür. Fikrin obyektivliyini onun doğruluğu (və ya həqiqiliyi) ilə səhv salmaq olmaz. Doğru olmayan, yəni, yanlış olan fikirlər də eyni dərəcə obyektivdir.)

Fikirlər bir neçə aspektdən tədqiq oluna bilərlər. Məsələn, bir psixoloq müəyyən bir subyektin nəyə görə *Bütün kişilər mərhəmətsizdirlər* fikrinə sahib olduğunu onun uşaqlıq keçmişi ilə əlaqələndirib araşdıra bilər. Və ya çox optimist bir neyroloq həmin fikrin beyindəki korrelyasiyasını (yəni, beyindəki hansı neyronal konfiqurasiyanın bu fikrə aid olduğunu) axtara bilər.[9] Ancaq analitik filosofun fikri

araşdırmaqda vəzifəsi tam fərqlidir. Analitik filosof üçün əsas məqsəd fikrin hansı anlayışlardan və necə (yəni, hansı məntiqi struktur əsasında) təşkil olunduğunu ortaya qoymaqdır. Bu işin öhdəsindən gəlmək üçün isə dilə müraciət əvəzedilməz bir vasitədir. Çünki, Freqenin təbirincə desək, bizim fikirlərə çıxışımız yalnız dil və ya digər işarələr sistemi vasitəsi ilə mümkündür. Məsələn, əgər biz *Bütün kişilər mərhəmətsizdirlər* fikrinin hansı anlayışlardan və nə cür təşkil olunduğunu bilmək istəyiriksə, onda analizi həmin fikrin dildəki ifadəsinə- "Bütün kişilər mərhəmətsizdirlər" cümləsinə əsasən aparmalı olacağıq. Bu baxımdan, cümlə, yenə Freqenin təbirincə ifadə etsək, fikri güzgü kimi əks etdirir (bax Frege 1979, 270).

Analitik ənənənin bəzi filosofları dilin rolunu daha da önə çəkərək qeyd edirdilər ki, əslində fəlsəfənin məqsədi linqvistik (konseptual) təhlil olmalıdır. Vitqenştayn hesab edirdi ki, fəlsəfi problemlərin qoyuluşundakı yanlışlıqlar dilin məntiqinin necə işlədiyinin yanlış anlaşılmasına görədir və həmin problemlərin həllini elə dilin təhlili vasitəsi ilə vermək mümkündür (bax Wittgenstein 1922). M. Şlik [Schlick] isə filosoflar arasında indi də məşhur olan *Erkenntnis* jurnalının ilk cildində "Die Wende der Philosophie" ("Fəlsəfədə dönüş") adlı məqaləsində yazırdı: "[Fəlsəfə] elə bir fəaliyyətdir ki, onun vasitəsi ilə cümlələrin mənası müəyyən edilir və açılır. Fəlsəfə vasitəsi ilə cümlələr izah, elm vasitəsi ilə verifikasiya olunur. Sonuncu cümlələrin doğruluğu, əvvəlki isə cümlələrin əslində nə məna verməsi ilə məşğuldur" (Schlick 1930, 8). Şlikin burada söylədiyini başqa sözlə ifadə etsək: elmin əsas vəzifəsi irəli sürülən elmi fikirlərin doğruluğunu yoxlamaq olduğu halda, fəlsəfənin vəzifəsi cümlələrin hansı fikri ifadə etdiyini dəqiqliklə ortaya qoymaqdır. Şlik və onun kimi düşünən bir sıra analitik filosoflar belə hesab edirdilər ki, fəlsəfə reallıq haqqında doğru fikirlər (yəni, bilik) deyil, həmin fikirləri aydınlaşdırmaqda bizim üçün bir alət olmalıdır; filosofun işi əslində linqvistik təhlildir.

Bununla belə, bütün analitik filosoflar fəlsəfi fəaliyyəti linqvistik təhlillə məhdudlaşdırmağın lehinə deyildilər. Rassel və Kvayn düşünürdülər ki, fəlsəfə də elm kimi bizə reallıq haqqında doğru fikirlər verməlidir, sadəcə fəlsəfənin vəzifəsi reallıqla bağlı olan daha ümumi və əhatəedici problemlərin həllini göstərməkdir. Onların fikrincə, dil üzərində aparılan fəlsəfi təhlil isə burada köməkçidir. Bənzər olaraq, Freqe də hesab edirdi ki, dilin analizi əsas məqsəd deyil, fəlsəfi problemlərin həlli üçün həyata keçirilən köməkçi fəaliyyətdir.[10]

Adlarını çəkdiyimiz, əsasən analitik fəlsəfənin ilk inkişaf mərhələlərinə aid olan filosofların dilin fəlsəfi analizinin fəlsəfədə oynadığı rola münasibəti heç də eyni olmamışdır. Onları bu baxımdan iki qrupa bölmək olar: 1) fəlsəfi analizi linqvistik (və ya konseptual)[11] analizlə məhdudlaşdıranlar (Mur, Şlik, Vitqenştayn və s.); 2) linqvistik analizi və dil fəlsəfəsinin bəzi aspektlərini digər fəlsəfi suallara cavab tapmaq üçün köməkçi vasitə hesab edənlər (Freqe, Rassel, Kvayn və s.). Burada diqqət yetiriləsi mühüm məqam ondan ibarətdir ki, bu iki qrupa aid filosoflar dilin analizinə münasibətdə bir-birindən fərqlənsələr də, Damitin yuxarıdakı fikri hər iki qrupa aid edilə bilər. Çünki onların, demək olar, hamısı fikrin fəlsəfi analizində dilin analizini olduqca mühüm hesab edirdilər.

Beləliklə, analitik fəlsəfə ilkin inkişaf mərhələlərində dilin fəlsəfi tədqiqatdakı rolunu olduqca irəli çəkməklə özünəqədərki fəlsəfədəki fikir-reallıq araşdırma modelini dil-fikir-reallıq üçbucağı ilə əvəzləyirdi. Analitik fəlsəfəyə qədərki yeni dövr fəlsəfəsinın əsas sualı bizim fikirlərimizlə reallıq arasında olan münasibət ilə bağlı idisə, analitik filosoflar ilkin olaraq dil və fikir arasındakı əlaqəyə fokuslanmağa üstünlük verirdilər. Başqa sözlə, analitik fəlsəfə ilə uzun müddət fəlsəfi refleksiyanın diqqətindən uzaqda olan dil diqqət mərkəzinə çəkilmiş oldu və fəlsəfə artıq dilə fikirlərin ifadə olunduğu sadə, o qədər də fəlsəfi marağa layiq olmayan bir medium kimi deyil, üzərinə xüsusi

diqqət yönəltməklə fəlsəfi problemlərin həllində mühüm rol oynayacaq bir vasitə kimi baxmağa başladı.

*Bir daha analitik fəlsəfənin əsas xüsusiyyətləri barədə*

Yuxarıda "analitik fəlsəfənin ilk inkişaf mərhələləri" ifadəsini bir neçə dəfə işlətməyim təsadüfi deyil. Freqe və Rasselin məntiqi analizi, konseptual təhlil və dil üzərinə güclü diqqət – bütün bunlar analitik fəlsəfənin ilk mərhələlərini xarakterizə edən əsas xüsusiyyətlərdir. Bununla belə, son 40-50 ildə analitik fəlsəfə müxtəlif istiqamətlərdə o qədər şaxələnmə yolu keçmişdir ki, əgər biz onun son dövrünü xarakterizə etmək istəyiriksə, onda yuxarıda sadaladığımız xüsusiyyətlər yetərli olmayacaqdır. Damitin müəyyənləşdirməsinə söykənmək də bu baxımdan ortaya sual ata bilər. Çünki müasir dövrdə analitik adlanan bir sıra filosof vardır ki, onlar nəinki fikri analiz etmək üçün dil üzərində fokuslanmırlar, hətta ümumiyyətlə dil fəlsəfəsi onların maraq dairəsindən kənardır (məsələn, bir sıra analitik əxlaq filosofları).[12] Çağdaş analitik filosofların maraq dairəsi indi dilin fəlsəfəsi ilə məhdudlaşmayıb fəlsəfənin müxtəlif sahələrini – ontologiya, şüur fəlsəfəsi, epistemologiya, elm fəlsəfəsi, etika, hətta din fəlsəfəsi və tarix fəlsəfəsini – əhatə edir.

Analitik fəlsəfənin bu cür şaxələnməsi onun əsas xüsusiyyətlərinin müəyyənləşdirilməsində çətinliklər yaradır. Çünki müxtəlif mövzular haqqında yazan və fərqli metodlardan istifadə edən filosofların çoxsaylı əsərləri içərisindən ümumi xüsusiyyətləri tapıb çıxarmaq və sonra həmin xüsusiyyətləri analitik filosofluq etmə tərzinə aid olub-olmadığını təyin etmək daha güclü əsaslandırma tələb edir. Bu səbəbdən, bu sual üzərində düşünən birisi bir neçə ortaq sayıla biləcək xüsusiyyətləri müzakirə etdikdən sonra belə nəticəyə gələ bilər ki, analitik fəlsəfə olsa-olsa fəlsəfi məsələlərdən bəhs etməyin bir üslubudur və burada analitik filosofların hamısına

eyni dərəcədə aid olacaq hər hansı bir (məsələn, linqvistik analiz kimi) ortaq metoddan və ya predmetdən danışmaq doğru olmazdı (bax Føllesdal 1996).

Bəs belə olan halda analitik filosofluqetmənin[13] bir fəlsəfi üslub kimi özünəməxsusluğunu nə cür təsvir etmək olar? Gəlin bu suala A. Bekermanın [Beckerman] Ernest Laporun [Lepore] söylədiklərinə söykənərək etdiyi qeydlər əsasında cavab verməyə çalışaq. Bekerman Lapora əsasən bildirir ki, Kvayn ABŞ-da analitik fəlsəfənin başlanğıcının dəqiq tarixini 1935-ci il olaraq götürürdü (Beckerman 2008, VIII). Həmin ildə Baltimorda bir məruzə zamanı Karnap A. Lavcoy [Lovejoy] ilə mübahisədə bir analitik filosofa xarakterik olan tərzdə belə deyir: “Əgər Artur Lavcoy *A*-nı nəzərdə tutursa, onda *p*-dir, əgər o, əksinə, *B*-ni nəzərdə tutursa, onda *q*-dür”. Bekerman bu sitatın üzərində dayanaraq qeyd edir ki, burada analitik filosofluqetmənin mühüm bir xüsusiyyəti özünü göstərir: *irəli sürülən tezisin (fikrin) məzmununu (darıxdırıcı olsa belə) mümkün qədər dəqiq müəyyən etmək cəhdi*. Filosoflar arasında belə hallar tez-tez baş verir: hər hansı bir tezis irəli sürülür və həmin tezisin ifadəsi zamanı elə bir termindən istifadə olunur ki, həmin terminin dəqiq olaraq hansı anlayışı ifadə etdiyini müəyyən etmək çətinlik yaradır. Bir sıra hallarda isə bu, tezisdən çıxarılan nəticəyə təsirini göstərir. Karnapın A. Lavcoyla mübahisəsi həmin hal üçün bir misaldır. (Yuxarıda haqqında söz açdığımız linqvistik (konseptual) analiz metodu belə dolaşıqlıqları aradan qaldırmaq üçün  mühüm vasitədir. Bu analizin əsas məqsədi sözlərin ifadə etdikləri mənaları aydın vermək və onların hansı anlayışı ifadə etdiyini dəqiq göstərməkdir. Bu cür yanaşma ilə irəli sürülən tezis daha aydın ifadə edilir. Tezisin xeyrinə və ya əleyhinə olan arqumentləri də yalnız onun məzmunu tam aydın olduqdan sonra müəyyən etmək mümkündür.)

Analitik filosofluqetmədə digər bir mühüm xüsusiyyət irəli sürülən tezisi və ya fikri əsaslandırmaq üçün istifadə olunan arqumentlərə xüsusi diqqət yetirilməsidir. Analitik filosof bu

cür sual verməyə daha tez-tez meyillidir: “Hər hansı bir tezisi qəbul və ya rədd etmək üçün hansı əsas(lar) vardır?” Başqa sözlə, əgər bir filosof *p* fikrinin doğru olduğunu iddia edirsə, onda onun digər *r, q* və s. fikirləri olmalıdır ki, *p*-ni əsaslandıra bilsin. Təbii ki, bu zaman arqumentlərin sayı nə qədər çoxdursa, irəli sürülən iddia da bir o qədər əsaslı olacaqdır.

Mən burada iddia etmək istəməzdim ki, yuxarıda göstərilən iki xüsusiyyət – tezisin məzmununu dəqiq müəyyən etmək cəhdi və arqumentlərə xüsusi diqqət yetirilməsi – yalnız analitik filosoflara xas bir xüsusiyyətdir. Təbii ki, siz fəlsəfə tarixinə müraciət etməklə orada analitik ənənəyə aid edilməyən xeyli filosof tapa bilərsiniz ki, onların yaradıcılığında da bu iki xüsusiyyət qorunmuşdur. Föllesdal [Føllesdal] bu məsələyə diqqət yetirərək qeyd edir ki, bu baxımdan analitik fəlsəfəni çağdaş fəlsəfi istiqamətlərdən biri kimi xarakterizə etmək yanıldıcı olardı (Føllesdal 1996, 206). Onun fikrincə, birisi analitik filosof sayılmaqla başqa bir fəlsəfi istiqamətə (fenomenologiyaya, orta əsrlər sxolastikasına və s.) aid də ola bilər. Məsələn, Föllesdal hesab edir ki, Husserl fenomenologiyanın banisi sayılsa da və ya Aristotel, Foma Akvinalı [Thomas Aquinas], Dekart [Descartes] müxtəlif dövrlərdə yaşasalar da, onların hamısı bu və ya digər dərəcədə analitik filosofdurlar; Haydeqer [Heidegger], Derrida kimi filosoflar isə əksinə, arqument və əsaslandırmaya (justification) az diqqət ayırdıqlarından analitik filosof deyillər.

Bu nəticə bir çoxları üçün təəccüblü görsənə bilər. Buradan belə haqlı bir sual ortaya çıxa bilər: Əgər fəlsəfə tarixinin daha əvvəlki dövrlərində analitik filosoflara rast gəlinirsə, onda nəyə görə biz məhz Freqe, Mur və ya Rasseldən başlayırıq? Bu sual Föllesdalın *analitik fəlsəfə* anlayışından doğan bir sualdır. Məsələ burasındadır ki, Föllesdalın təqdim etdiyi *analitik fəlsəfə* anlayışı bir çoxlarının istifadə etdiyi, əslində səliqəsiz (yayğın) olan *analitik fəlsəfə* anlayışı ilə eyni deyildir. Föllesdal *analitik filosof* və ya *analitik*

*fəlsəfə* anlayışının müəyyən edilməsində arqument və əsaslandırmanı birlikdə kafi şərtlər kimi götürür və daha sonra fəlsəfə tarixinə baxdıqda məlum olur ki, əslində bir çox analitik filosof kimi tanınmayan filosofların yaradıcılığında da bu şərtlər ödəndiyindən, onlar da analitik filosof imiş.

Əslində isə çoxları heç də “analitik fəlsəfə” terminini Föllesdalın təqdim etdiyi mənada istifadə etmirlər. Bu termin filosofların və fəlsəfə ilə maraqlananların dilində tətbiq sərhədləri sərt müəyyən olunmuş bir ifadə kimi deyil, əsasən “çətir” termin kimi istifadə olunur. Bu həm də o deməkdir ki, “analitik fəlsəfə” termininin tərifi zəruri və kafi şərtlərdən çıxış edilərək verilərsə, bu, onun faktiki tətbiq arealı ilə üst-üstə düşməyəcəkdir; necə ki biz bunu Föllesdal nümunəsində görürük. Çünki *analitik fəlsəfə* anlayışı fəlsəfə tarixi kontekstində daha çox istifadə edilir və bu həm də o deməkdir ki, bu və ya digər filosofun analitik fəlsəfəyə aid olub-olmadığını müəyyən etmək üçün tədqiqatçılar onların yazı və düşüncə üslubları ilə yanaşı, sözü-gedən filosofun hansı müəlliflərdən daha çox təsirləndiyini və kimlərlə polemikada olduğunu da ciddi nəzərə alırlar. Bu baxımdan, Dekart və F. Akvinalı kimi tarixi fiqurları analitik fəlsəfəyə aid etmək düzgün olmazdı. Çünki analitik ənənənin başlanğıcı bəlli xüsusiyyətlərə görə Freqe, Mur və Rasseldən üzü bəri götürülürsə və ondan sonra gələn müəyyən filosoflar öz əsərlərində daha çox qrup kimi bir-biriləri ilə polemikada olurlarsa, onda daha əvvəlki tarixi dövrlərdə yaşayan filosoflar bu fəlsəfi istiqamətdən kənara düşmüş olur.

Buna baxmayaraq, Föllesdalın ən azı bir məsələni doğru vurğulamasında şübhə yeri yoxdur. Və bunu bir daha təkrarlamaq yerinə düşərdi: analitik filosoflar arqumentasiya məsələsinə daha çox diqqət yetirirlər; bu filosoflar üçün öz mərkəzi tezislərinin məzmununu mümkün qədər aydın ifadə etmək və həmin tezisləri arqumentlərlə təchiz etmək digər fəlsəfi məktəb və ya cərəyanlara aid filosoflarla müqayisədə daha prioritet məsələdir.[14] Yuxarıda söylədiklərimdən çıxış edərək, Föllesdalın fikrinə yeganə əlavəm bu olardı ki, burada

tarixilik və filosofların bir-biriləri ilə polemiklik kimi xüsusiyyətləri də nəzərə alınmalıdır.

*Analitik fəlsəfə bizə nə verə bilər?*

Yarımbaşlıqdakı bu suala cavab verməmişdən əvvəl gəlin birinci analitik fəlsəfənin məqalədə toxunulan əsas xüsusiyyətlərinə bir daha qısa nəzər salaq. Yuxarıda qeyd olundu ki, analitik filosoflar tez-tez konseptual analiz və məntiqi analiz metodlarından istifadə edirlər, irəli sürdükləri tezislərin aydın formulə edilməsinə və onların arqumentlərlə təchiz edilməsinə xüsusi üstünlük verirlər. Məqalənin son hissəsində isə mən analitik fəlsəfənin bizə təqdim etdiyi bu alətlərdən çıxış edərək, azərbaycandilli fəlsəfi mətnlərdə tez-tez rast gəlinən bəzi çatışmayan xüsusiyyətlər barədə söz açacam.

<u>Konseptual və ya linqvistik təhlildə çoxmənalılığın aradan qaldırılması.</u> Artıq qeyd edildiyi kimi, konseptual təhlil metodundan istifadə etməkdə əsas məqsəd terminin ifadə etdiyi anlayışı dəqiq müəyyən etməkdir. Tez-tez olur ki, termin çoxmənalı səciyyə daşıdığından və ya iki və daha artıq anlayışı ifadə etdiyindən müəllifin sözügedən terminlə nəyi ifadə etmək istədiyi aydın olmur. Azərbaycandilli mətnlərdə belə nümunələrə tez-tez rast gəlinir. Məsələn, Ağalar Qut son yazılarının birində "həqiqət" termininin bir-birindən xeyli dərəcədə fərqli anlayışları ifadə etdiyini nəzərə almadan yazır:

"Azərbaycan xalqına M.F.Axundovdan, C.Məmmədquluzadədən, M.Ə.Sabirdən, Ü.Hacıbəyovdan və b. fərqli şərh ver, xalqın əslində heç əvvəldən onların təsvir etdiyi kimi olmadığını görəcəksən; sənin xalq haqqında şərhin dəyişmədiyi üçün, elə bilirsən xalq hələ də onların təsvirlərindəki kimidir və onların *dedikləri* əbədi *həqiqətdir*, onlar özləri isə əbədi *həqiqətləri* tapdıqları üçün ölməz dahilərdir. İslamçıların hər yerdə Allahı tapmaqları kimi" (Qut 2018, vurğu əlavə edilmişdir).

Burada diqqət yetiriləsi məqam odur ki, “həqiqət” termini müxtəlif kontekstlərdə – həm dini, həm də fəlsəfi mətnlərdə – müxtəlif cür istifadə edildiyindən çoxmənalılıq qazanmışdır. Bu yazıda mənim “həqiqət” termininin ifadə etdiyi mənaları və konseptləri kafi dəqiqliklə açmaq imkanım yoxdur – bu, ayrıca bir geniş fəlsəfi tədqiqat mövzusudur. Ancaq, qısaca onu qeyd edim ki, ən ümumi şəkildə olsa belə, “həqiqət” termininin iki müxtəlif anlayışı ifadə etdiyini nəzərə almaq gərəkdir: 1) əsasən dini kontekstdə istifadə olunan və transsendent gerçəkliyi bildirən *Həqiqət* (İslam dininə aid mətnlərdə bu transsendent gerçəklik bir çox hallarda “Allah”, “Haqq” terminləri ilə də işarələnir); 2) daha çox fəlsəfi və məntiqi kontekstlərdə istifadə olunan, cümlə və ya fikirlərin xüsusiyyətini bildirən *həqiqət* anlayışı (bu *həqiqət* anlayışından biz “filan fikir və ya cümlə həqiqidirmi/doğrudurmu?” sualını verərkən istifadə etmiş oluruq). Qut “onların dedikləri əbədi *həqiqətdir*” yazdıqda, “həqiqət” terminini fəlsəfi-məntiqi mənada işlədirmiş kimi görsənir. Çünki “A-nın dedikləri həqiqətdir” tipli cümlələrdə “həqiqət” termini “İslamçılar Həqiqəti (və ya Allahı) tapmışdır” cümləsində olduğu kimi transsendent nəsnəni bildirsəydi, daha dolaşıq cümlə kimi başa düşülərdi (A-nın dediyi cümlədir ki, həmin cümlə də həqiqilik (doğruluq) dəyərinə malik bir nəsnədir, ilahi və ya transsendent bir şey deyil). “A-nın dedikləri həqiqətdir” cümləsində “həqiqət” termini A-nın dedikləri cümlə və ya fikirlərlə gerçəklik arasında olan *münasibəti*, yəni A-nın dediyi fikirlərin gerçəkliyə uyğun olduğunu və ya onların həqiqi (doğru) olduğunu ifadə edir.həq*h*həh Lakin Qut eyni cümlədə “həqiqət” terminini təkrar işlədərək, “əbədi həqiqətləri” tapmağı islamçıların “hər yerdə Allahı tapmaqları” ilə müqayisə etdikdə isə diqqətli oxucuda elə təəssürat yaranır ki, o, indi də dini *Həqiqət* anlayışına müraciət etmişdir. Sonuncu anlayış isə fəlsəfi-məntiqi kontekstlərdə istifadə olunan *həqiqət* anlayışından xeyli fərqli bir anlayışdır. Beləliklə, Qut eyni cümlədə və kontekstdə “həqiqət” terminini onun çoxmənalılığına diqqət yetirmədən işlətməklə, mətnin sözügedən hissəsinə aid

fikirləri aydın ifadə etməmişdir. (*Fikri aydın ifadə etmək* dedikdə, mən heç də onun sadə, “hamının başa düşəcəyi” xəlqi dildə ifadə edilməsini nəzərdə tutmuram. Fikrin aydın ifadə olunması üçün əsas şərt onun xəlqi dildə olması deyil, onun mənaları kafi dəqiqliklə ayırd edilmiş sözlərlə ifadə olunmasındadır.)

Kvantorlar məntiqindən analizdə istifadə. Azərbaycandilli mətnləri oxuyarkən tez-tez olur ki, rast gəlinən cümlədə predikatın bildirdiyi xüsusiyyətin subyekt qismində çıxış edən qrupun tamına və ya bir hissəsinə aid olduğunu müəyyən etməkdə çətinliklə üzləşirsən. Məsələn, “İnsanlar biri-birindən yaxşı adam olmağı umurlar” (Mehdi və Mehdi 2010) cümləsində subyektə (*insanlar*a) predikasiya olunan xüsusiyyətin (*biri-birindən yaxşı adam olmağı umma*ğın) bütün insanlaramı və ya onların bir qisminəmi aid olunduğunu müəyyən etmək o qədər də asan deyil. Müəllif burada nəyi nəzərdə tutur? Bütün insanlar biri-birindən yaxşı adam olmağı umurlar? Yoxsa, bir sıra (ya da əksər)? Bu məsələ əhəmiyyətsiz görünməməlidir. Düzdür, ola bilsin, bir sıra kontekstlər üçün kvantorun dəqiqləşdirilməməsi ziyansız olsun. Ancaq elə hallar olar bilər ki, orada belə dəqiqləşdirmələrin olmaması sonrakı əqli nəticələrə də təsir göstərsin. Çünki, nə qədər ki müəllif cümlədə təbii dildə kvantor bildirən ifadələrdən istifadə etməyib, onda cümlənin iki cür oxunuşu mümkün ola bilər. Yuxarıda nümunə kimi gətirdiyimiz cümlədə olduğu kimi:

**(4) ∀x (İx → Ux)**

**(5) □x (İx & Ux)**

(4)-də “∀” işarəsi təbii dildə “bütün” və ya “hər bir” sözləri ilə ifadə olunan universallıq kvantorunu, “İ” *insan olma*, “U” *biri-birindən yaxşı adam olmağı umma* əlamətini, “→” kondisionallığı (şərt əlaqəsini) bildirir. “x” isə (həm (4)-də, həm də (5)-də) dəyişəndir, yəni x-in yerinə istənilən insanı qoymaq olar. (5)-dəki “□” işarəsi isə təbii dildə “bəzi” və ya “əksər” sözləri ilə ifadə olunan kvantoru, “&”

konyuktiv bağlayıcını işarə edir. (4) kimi oxunuşda “İnsanlar biri-birindən yaxşı adam olmağı umurlar” cümləsi yanlışdır. Çünki bütün insanların bir-birindən yaxşı adam olmağı ummasını iddia etmək doğru olmazdı. Hər halda elə pessimist insanlar ola bilər ki, onlar heç kimdən yaxşı adam olmağı ummasınlar. Cümlənin (5) kimi oxunuşunda isə onun dəyəri doğrudur. Çünki *bir qrup* (bəlkə də *əksər*) insanlar doğrudan da bir-birlərindən yaxşı adam olmağı umurlar. Beləliklə, “İnsanlar biri-birindən yaxşı adam olmağı umurlar” cümləsinin iki oxunuşunun müxtəlif doğruluq dəyərləri vardır. Belə olan halda cümləni oxuyan oxucu müəllifin doğru bir fikri ifadə edib-etməməsini müəyyənləşdirməkdə çətinliklə üzləşə bilər.

<u>Arqumentasiya.</u> Yuxarıda qeyd etdiyimiz kimi, analitik filosofların əsərlərində tez-tez rast gəlinən mühüm xüsusiyyətlər irəli sürülən tesizlərin aydın ifadə edilməsinə xüsusi diqqət yetirilməsi və onun müdafiəsi üçün mümkün qədər tutarlı arqumentlər göstərilməsidir. Filosofluqetmə üçün mühüm sayılacaq bu xüsusiyyətlər azərbaycandilli fəlsəfi mətnlərin əksəriyyətində nəzərə alınmayan xüsusiyyətlərdir. Siz belə bir eksperiment edə bilərsiniz: Azərbaycanda fəlsəfə üzrə yaxşı tanınmış bir müəllifin əsərini götürüb oradan bir fəsli və ya ayrıca bir məqaləni oxuyun və sonra sual edin. Müəllifin bu fəsildə və ya məqalədəki əsas tezisləri (və ya ideyaları) hansılardır və həmin tezisləri əsaslandırmaq üçün müəllif hansı arqumentləri irəli sürür? Bir neçə dəfə Azərbaycanın müxtəlif tanınmış fəlsəfə adamlarının yazılarını oxuduqdan sonra bu sualı qoysam da, bir çox hallar üçün cavab tapmaqda çətinlik çəkmişəm. Əvəzində isə daha çox rast gəldiyim bunlar olmuşdur: fəlsəfi terminlərin mənalarını aydınlaşdırmadan necə gəldi istifadə edilməsi, bolluca metafora, pafos və müxtəlif ritorik fəndlər. Bu cür mətnləri oxuyarkən oxucunun da mövzunu anlaması və mətn üzərində düşünüb onunla polemikaya girməsi olduqca çətindir. Təsadüfi deyil ki, Azərbaycanda az-çox tanınmış filosofların özləri arasında belə polemik mühit yox səviyyəsindədir. Onlar bir-birlərinin əsərlərini, demək olar ki, oxumur, yaxud oxusalar da, biri-birlərinin fikirlərini

müzakirə edəcək səviyyədə anlamırlar. Azərbaycanlı fəlsəfə adamlarının bir qrupu isə özünü mistik bir qala, bəzən isə dahi filosof hesab edir, bəziləri isə yazdıqlarının anlaşılmaz və qəliz olması ilə öyünürlər.

Analitik fəlsəfənin bizə öyrətdikləri isə bunun tam əksidir. Əgər bir fəlsəfə oxucusu oxuduğu mövzunu əsasları səviyyəsində bilirsə və bununla belə, mətni diqqətlə oxuduqdan sonra müəllifin nə demək istədiyini başa düşmürsə, deməli, bu, oxucunun deyil, müəllifin problemidir. Bu baxımdan, aydın dildə yazmaq analitik filosof üçün əsas şərtlərdəndir. Digər tərəfdən, əgər müəllif oxuculardan onun mövqeyini bölüşməyini istəyirsə, bol metafora işlətmək və müxtəlif ritorik üsullardan istifadə etmək əvəzinə, arqumentlər irəli sürməli və onların tutarlı olmasına diqqət yetirməlidir. Müəllif ilə oxucu arasında məhsuldar və tənqidi fəlsəfi dialoqun baş tutması da bu yolla mümkündür.

Sonda analitik fəlsəfə ilə məşğul olmağın əhəmiyyətini qısaca aşağıdakı şəkildə ifadə edərdim: analitik fəlsəfəni öyrənməklə biz nəinki müasiri olduğumuz dövrün bir çox qabaqcıl filosoflarının müxtəlif fəlsəfi suallara *nə* cavab verməsi ilə tanış ola bilərik, həm də həmin filosofları oxumaqla onların *necə* düşündüklərini, hansı fəlsəfi metodlardan istifadə etdiklərini də öyrənmək imkanına sahib olarıq. Nəzərə alsaq ki, analitik fəlsəfə əsas və ümumi xüsusiyyətlərinə görə Qərbin fəlsəfi ənənəsində tarixən qərarlaşmış ciddi və rasional filosofluqetmə tərzinin çağdaş dövrdə davamıdır; həmçinin nəzərə alsaq ki, yaşadığımız olduqca mürəkkəb bu dünyanı qeyri-rasional vasitələrlə dərk etmək mümkünsüzdür, onda analitik fəlsəfədən öyrənəcək çox şey vardır.

***İstinadlar***

Beaney, M. (2014): Conceptions of Analysis in Analytic Philosophy, in *Stanford Encyclopedia of Philosophy*, https://plato.stanford.edu/entries/analysis/s6.html#4

Beckerman, A. (2008): *Analytische Einführung in die Philosophie des Geistes*, 3. Auflage, Berlin: Walter de Gruyter.

Dummett, M. (1993): *Origins of Analytical Philosophy*, Bloomsbury Academic.

Føllesdal, D. (1996): Analytic Philosophy: What is it and why should one engage in it? *Ratio* (New Series) IX 3, pp. 193-208.

Frege, G. (1979): *Posthumous Writings*, Basil Blackwell 1979.

Kemmerling, A. (2018): Begriff und Begriffsanalyse, Interview mit Peter Moser in: *Information Philosophie* (Juni 2018, 2, 76-85).

Mehdi, N. və Mehdi D. (2010): *Fəlsəfə tarixində Fəlsəfə*, Bakı: Qanun.

Moore, G. E. (1925): A Defense of Common Sense, in J. H. Muirhead ed., *Contemporary British Philosophy*, London: Allen and Unwin, 193-223.

Moore, G. E. (1899): The Nature of Judgment, *Mind* 8, 176-193.

Preston A. Analytic Philosophy, *The Internet Encyclopedia of Philosophy,* https://www.iep.utm.edu/analytic/

Qut, A. (2018): Yaradıcılıq, yoxsa yozuculuq? Yeni vizion axtarışında, *Ağalar Qutun bloqu*, https://agalarqut.wordpress.com/2018/12/24/yaradiciliq-yoxsa-yozuculuq-yeni-vizion-axtarisinda/

Russell, B. (1959): *My Philosophical Development,* New York: Simon and Schuster, Inc.

Schlick, M. (1930): Die Wende der Philosophie, *Erkenntnis*, Vol. 1, Issue 1, 4–11.

Wittgenstein, L. (1922): *Tractatus Logico-Philosophicus*, London: Routledge & Kegan Paul.

[1] Azərbaycanda fəlsəfə ilə maraqlananların və hətta peşəkar şəkildə fəlsəfi fəaliyyətlə məşğul olduqlarını söyləyənlərin bəzilərində belə bir yanlış fikir vardır ki, yaşadığımız dövrün əsas fəlsəfi cərəyanı postmodernizmdir. Ancaq əgər sizin özünüz internet vasitəsi ilə qabaqcıl universitetlərin fəlsəfə departamentlərindəki filosofların fəaliyyəti haqqında məlumatlara qısa nəzər salsanız görərdiniz ki, orada özünü postmodernist adlandıracaq filosofların sayı olduqca azdır. Çağdaş dövrdə postmodernizm bir çox qabaqcıl qərb universitetlərinin fəlsəfə departamentlərində öz yerini xeyli vaxtdır başqalarına uduzmuşdur. Özlərini bu və ya digər şəkildə analitik fəlsəfəyə aid edən filosofların sayı isə əksinə, olduqca çoxdur.

[2] "Bölmək" ifadəsi burada geniş mənada işlədilmişdir. Hər hansı bir nəsnənin fikrən və ya maddi olaraq hissələrə bölünməsi nəzərdə tutulur.

[3] "Analiz" dedikdə burada həm də anlayışın tərifinin verilməsi də nəzərdə tutula bilər.

[4] Analitik fəlsəfədə bir-birinə bənzər müxtəlif analiz metodları vardır (bunun üçün bax Beaney 2014). Bu məqalədə mən yalnız daha geniş yayılmış konseptual analiz metodunu ümumi olaraq nəzərdən keçirirəm.

[5] Təbii ki, *insan* və *evlənməmiş* anlayışları da sadə olmadığından analizi davam etdirmək olar. Ancaq misal sadə olsun deyə, burada analizi uzatmağa ehtiyac görmürəm.

[6] Burada bir məsələyə diqqət yetirmək lazımdır ki, konseptləri (bizim misalda, ___*insandır*-ı) bir funksiya olaraq arqumentlə təmin etdikdə iki qiymətdən biri – doğru və ya yanlış – əldə edildiyi halda, riyazi funksiyalardan (məsələn, y=2x funksiyasından) qeyri-müəyyən sayda müxtəlif qiymətlər əldə edilə bilər.

[7] Bunlar doğru olan neqativ ekzistensial cümlələrə aid daha bir neçə nümunələrdir: “Şaxta baba mövcud deyil”, “Təpəgöz mövcud deyil” və s.

[8] əslində linqvistik fəlsəfəni dil fəlsəfəsindən fərqləndirmək gərəkdir. Dil fəlsəfəsi fəlsəfəyə aid olan çoxsaylı fənlərdən biridir. Linqvistik fəlsəfə isə fəlsəfi problemləri həll etmək üçün bir metoddur. Analitik fəlsəfədə hər ikisinə maraq tarixən güclü olmuşdur.

[9] Əslində neyroloqun bu məsələyə cavab verə biləcəyi olduqca çətin, bəlkə də mümkünsüz görsənir. Bunu mən sadəcə misal olaraq çəkirəm.

[10] Əslində Freqe yaradıcılığındakı dil üzərində fokuslanma daha dolayı səciyyə daşıyırdı. Freqenin əsas məqsədi riyaziyyatın fəlsəfəsi ilə bağlı konkret suallara cavab vermək idi. Bunun üçün isə o, bir vasitə olaraq, yeni məntiq verməli oldu. Məntiqlə bağlı bəzi suallar isə onu dilin fəlsəfi analizinə yönəltdi.

[11] Bir sıra hallar üçün linqvistik analizi konseptual analizdən fərqləndirmək lazım gəlir (bax Kemmerling 2018).

[12] Bəzi tədqiqatçılar XX əsrin II yarısında analitik fəlsəfədə baş verən bu ciddi dəyişikliyə diqqət yetirərək qeyd edirlər ki, ənənəvi mənada analitik fəlsəfə (yəni, fəlsəfi problemlərə dilin analizi vasitəsi ilə həll verən, dil analizini yeganə metod kimi önə çəkən fəlsəfə) artıq yoxdur (Beckerman 2008, VII).

[13] “Filosofluqetmə” dedikdə fəlsəfi suallar və problemlərə məşğul olmağı nəzərdə tuturam.

[14] Bu xüsusiyyətlərə mühüm önəm verilməsi analitik filosofların yazı üslubuna da ciddi təsir göstərmişdir. Tez-tez olur ki, analitik filosoflar oxucunun diqqətini xüsusi şəkildə cəlb etməsi üçün öz əsərlərində mərkəzi tezisləri əsərin əsas hissəsindən ayıraraq onları fərqləndirir və həmin

tezislərə qısa adlar verirlər.